# Görkəmli alimin 100 illik yubileyi qeyd edilib






İyunun 22-də Bakı Dövlət Universitetində (BDU) görkəmli alim və pedaqoq, Əməkdar Elm Xadimi, fizika-riyaziyyat elmləri doktoru, professor Əmir Həbibzadənin anadan olmasının 100 illiyinə həsr edilmiş "Funksional analiz və onun tətbiqləri" mövzusunda respublika elmi konfransı keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə BDU-nun rektoru, akademik Abel Məhərrəmov professor Ə.Həbibzadənin mənalı ömür yolundan, elmə, təhsilə verdiyi töhfələrdən danışıb.

Rektor alimin riyaziyyat elminin inkişafında əvəzsiz xidmətlərini vurğulayıb.

BDU-nun mexanika-riyaziyyat fakültəsinin dekanı Nizaməddin İsgəndərov professor Ə.Həbibzadənin universitetdə səmərəli elmi-pedaqoji fəaliyyətindən bəhs edib.

Qeyd olunub ki, Ə. Həbibzadə 1948-ci ildə namizədlik, 1970-ci ildə isə doktorluq dissertasiyası müdafiə edib. Yüksək ixtisaslı mütəxəssislərin hazırlanmasında onun mühüm rolu olub. Alimin rəhbərliyi ilə 53 namizədlik və doktorluq dissertasiyaları müdafiə edilib.

Azərbaycan Milli Elmlər Akademiyasının Riyaziyyat və Mexanika İnstitutunun direktoru, professor Misir Mərdanov və digər alimlər də professor Ə.Həbibzadənin elmi nailiyyətlərindən danışıb, əsərlərinin əhəmiyyətini diqqətə çatdırıb, onunla bağlı xatirələrini bölüşüblər.

Sonra konfrans işini "Riyazi analiz", "Funksional analiz və ehtimal nəzəriyyəsi", "Diferensial tənliklər", "Cəbr və həndəsə, riyaziyyat və onun tədrisi metodikası", "Hesablama riyaziyyatı və mexanika", "Optimal idarəetmənin riyazi üsulları" bölmələrində davam etdirib. Bölmə iclaslarında 126 məruzə dinlənilib, müzakirələr aparılıb.

AZƏRTAC